Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsi üzrə Boradigah bələdiyyəsi üzvlüyünə namizədlər Abdullayev Emin İbrahim oğlu, Fərzullayev Xasay Səfər oğlu və digərlərinin 2 yanvar 2010-cu il tarixli 378 saylı müraciəti üzrə

# R Ə Y İ

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsi üzrə Boradigah bələdiyyəsi üzvlüyünə namizədlər Abdullayev Emin İbrahim oğlu, Fərzullayev Xasay Səfər oğlu və digərlərinin 2 yanvar 2010-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

71 saylı Masallı kənd seçki dairəsi üzrə Boradigah bələdiyyəsi üzvlüyünə namizədlər Abdullayev Emin İbrahim oğlu, Fərzullayev Xasay Səfər oğlu və digərləri müraciət edərək, Boradigah bələdiyyəsini əhatə edən 17, 18, 19, 20 və 21 saylı seçki məntəqələrində səsvermənin nəticələrinə görə seçkidə yüksək səs toplamalarını, bu barədə məntəqə seçki komissiyaları tərəfindən onlara səsvermənin nəticələrini müəyyən edən yekun protokolların möhürlənmiş və imzalanmış surətlərinin verilməsini, ancaq dairə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinə görə məntəqə seçki komissiyalarının səsvermənin yekunlarına dair protokollarına əsasən tərtib olunan yekun protokolunda bələdiyyə üzvlüyünə seçilməmələrini əsas göstərərək həmin bələdiyyə üzrə seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişlər.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında mənim vəsatətim əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Tərəfimdən aparılan araşdırma zamanı əldə olunmuş sübutlarla müəyyən edilmişdir ki, mövcud məsələ ilə əlaqədar dairə seçki komissiyasında aparılmış araşdırma seçki qanunvericiliyinin tələblərinə tam cavab verən səviyyədə olmamışdır. Boradigah bələdiyyəsinə seçkilər üzrə 17, 18, 19, 20 və 21 saylı

seçki məntəqələrindən səsvermənin nəticələrinə dair yekun protokolların maraqlı şəxslərə verilmiş təsdiq edilmiş surətlərinin səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının yekun protokolları ilə müqayisəli təhlili nəticəsində müəyyən edilən fərqlər seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermir.

Əldə olunmuş sübutlardan görünür ki, 71 saylı Masallı kənd seçki dairəsinin qeyd edilən seçki məntəqələrində Seçki Məcəlləsinin tələblərinə riayət olunmaması vətəndaşların seçki hüquqlarının pozulması ilə nəticələnmişdir. Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin məntəqə seçki komissiyasının vəzifələrini müəyyən edən 37-ci maddəsinin 37.1.8-ci bəndinə əsasən məntəqə seçki komissiyası seçki məntəqəsində səsvermənin nəticələrini müəyyənləşdirir, səsləri hesablayır və səsvermənin nəticələri haqqında yekun protokolları dairə seçki komissiyasına çatdırır. Həmin Məcəllənin 106.6-cı maddəsinə əsasən, səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolu bu Məcəllənin 40.2-ci və 40.4-cü maddələrində göstərilən şubyektlərin müşahidəsi ilə tərtib olunur.

Göstərilənlərə əsasən, 71 saylı Masallı kənd seçki dairəsi üzrə Boradigah bələdiyyəsinə namizədlərin müraciəti təmin edilməli, həmin bələdiyyəni əhatə edən 17, 18, 19, 20 və 21 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılaraq ləğv edilməli və bələdiyyə üzrə seçkilər etibarsız sayılmalıdır. Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2.1-ci maddəsinə əsasən bələdiyyə üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin bələdiyyənin ərazisində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ləğv edildikdə, həmin seçki məntəqələrində seçicilərin sayı bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil edərsə, bələdiyyə üzrə seçkilər etibarsız sayılır.

Araşdırma nəticəsində tərəfimdən müəyyən edilmişdir ki, mövcud aşağı seçki komissiyalarının tam tərkibdə buraxılması üçün əsas yaranmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinin tələbinə görə aşağı seçki komissiyası tərəfindən vətəndaşların seçki və referendumda iştirak etmək hüquqları pozulduqda və belə bir hal nəticəsində Mərkəzi Seçki Komissiyası müvafiq ərazidə səsvermənin nəticələrini etibarsız hesab etdikdə, Mərkəzi Seçki Komissiyası həmin aşağı seçki komissiyasını buraxa bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 23.2-ci, 37-ci, 106.6-cı, 112-ci, 112-1-ci, 240-cı maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 71 saylı Masallı kənd seçki dairəsindən Boradigah bələdiyyəsinə namizədlər Abdullayev Emin İbrahim oğlu, Fərzullayev Xasay Səfər oğlu və digərlərinin 2 yanvar 2010-cu il tarixli 378 saylı müraciəti təmin edilsin.

2. Boradigah bələdiyyəsini əhatə edən 17, 18, 19, 20 və 21 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılaraq ləğv edilsin.

3. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2-ci maddəsinə əsasən Masallı rayon Boradigah bələdiyyəsi üzrə seçkilər etibarsız sayılsın.

4. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinə əsasən 71 saylı Masallı kənd seçki dairəsinin 17, 18, 19, 20 və 21 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları buraxılsın.

5. Rəy 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov